**Məmmədov Q**. Elin Nicatı // Azərbaycan : qəzet. - 2023. - 10 dekabr. - **№ 270**. - S. 15.

30 ildən çoxdur məmləkətimizin hər yerində elə bulaqlar çağlayır ki, bir ovuc suyu təkcə susuzluq təşnəsini sirab eləmir, eyni zamanda qan, gen yaddaşını quraqlıq çəkməyə qoymur, vətənə məhəbbət duyğularını suvarır…
Bunlar, əlbəttə, torpaqlarımızın azadlığı, dövlət suverenliyi və ərazi bütövlüyümüzün bərpası uğrunda canlarını qurban verən qəhrəman övladlarımızın şərəfinə tikilmiş "Şəhid bulağı" xatirə kompleksləridir. Zaqatalanın Muğanlı kəndinin sakinləri də neçə müddətdir ki, şəhid Nicatın doğulub böyüdüyü ev, uyuduğu məzar qədər əziz, müqəddəs olan bulağın başına toplaşır, mərmər lövhədən boylanan məsum gəncə baxır, kövrək xatirələrini bölüşürlər.
Xəlilli Nicat Əli oğlu 1994-cü il dekabrın 9-da dünyaya göz açıb. Ailənin sonbeşiyi idi. Orta məktəbi bitirib müxtəlif sahələrdə, əsasən də mebel sexində işləmişdi. Harada çalışmasından asılı olmayaraq, arzusu Vətən torpaqlarının azadlığı uğrunda mübarizəyə qalxmaq idi. Bu arzu ilə 2013-2014-cü illərdə Milli Ordu sıralarında həqiqi hərbi xidmət keçdi, yüksək döyüş hazırlığına və bacarığına görə dəfələrlə komandanlıqdan təşəkkürlər, fəxri fərmanlar aldı. Qardaşı Nihad da, bacısı Nərmin də ailə qurub oğul-uşaq sahibi olmuşdular. Növbə Nicata çatanda müxtəlif bəhanələrlə vaxtı uzadır, evlənməyi təxirə salırdı.
Bu gündən dünənə - Vətən savaşımızın başladığı 2020-ci ilə baxanda, doğrudan da, heyrətamiz hadisələrə şahidlik edirik. Xüsusən də heç vaxt Qarabağı görməyən gənclərimizdə işğalla barışmazlıq əhvali-ruhiyyəsi elə aşıb-daşırdı ki, heyrətlənməmək mümkün deyil. İkinci Qarabağ müharibəsi başlayanda şir biləkli oğullarımız dəstə-dəstə səfərbərlik idarələrinə, çağırış məntəqələrinə axışır, silaha sarılaraq vətənin müdafiəsində dayanmaq, işğalçıları müqəddəs ərazilərimizdən qovub çıxarmaq istəklərini bildirdilər. Birinci Qarabağ savaşında 8 şəhid verən Muğanlının cəsur övladları da vətənpərvərlər dalğasının özəyində idilər. Sentyabr ayında kənd əhli 50-dən çox könüllüsünü ordu sıralarına yola saldı. Onların içərisində Nicat Xəlilli də vardı...
Şəhidimizin valideynləri Əli ata da, Bəsti ana da sadə, əliqabarlı, vüqarlı insanlardır. Oğul itkisi qamətlərini büksə də, təmkinlərini, qürurlarını qoruyub saxlaya biliblər. Nicatın qəlbinin Vətən məhəbbəti ilə döyündüyünü, erməni qatillərinin xalqımızın başına gətirdikləri zülmləri - Xocalı, Daşaltı, Başlıbel faciələrini, əsirlikdəki qız-gəlinlərimizə verilən işgəncələri xatırlayanda çox sarsıldığını söyləyirlər. Əli kişi deyir: "Bizdən gizlicə gedib orduya yazılmışdı. Səfərbərlik idarəsinə telefon nömrələri qoyubmuş, hər gün işdən evə dönəndə onunla əlaqədar zəng gəlib-gəlmədiyini soruşardı. İşin əsas məğzini sonradan bilmişik, cəbhəyə yola düşəndə də elə bil uçurdu. Tək subayımız o qalmışdı, evləndirmək istəyirdik, həmişə toydan söhbət düşəndə "bir az da gözləyin" deyirdi. Sən demə, oğlumuzun ürəyində başqa istək varmış - Azərbaycanın işğaldakı

ərazilərini azad görmək eşqi… Təki Vətən sağ olsun!"
Düşmənin xain təxribatlarına layiqli cavab verən Azərbaycan Ordusu sentyabrın 27-dən etibarən bütün cəbhəboyu əks-hücuma keçmişdi. İki gün sonra - ayın 29-da Nicatın arzusu çin oldu, evlərinə zəng, ardınca çağırış vərəqəsi gəldi. Yol yoldaşları söyləyirlər ki, Nicat elə sevinir, deyib-gülürdü ki, sanki toya hazırlaşırdı. Toplanış məntəqəsində kəşfiyyat bölüyündə xidmət etmək istəyini israrla bidirirdi. Onu bu arzudan çəkindirməyə çalışanlara "Bura seçim yeri deyil, yaxşı topçuyam, atıcıyam, indi də yaxşı kəşviyyatçı olacağam. Şərait nə tələb edirsə, yerinə yetirməyə borcluyuq" qətiyyəti göstərirdi.
Sentyabrın 30-dan ön xətdə döyüşlərə girdi. Kəlbəcər, Ağdam, Ağdərə, Goranboy rayonlarının düşmən tör-töküntülərindən təmizlənməsində fəal iştirak etdi. Rəşadətli ordumuzun hücumları qarşısında qorxaq, aciz ermənilərin atıb qaçdığı neçə-neçə hərbi texnika döyüş meydanında qalmışdı. Oktyabrın 9-da bölük Goranboyun Gülüstan kəndi istiqamətində döyüşə başladı. Nicat və onun Şamaxı şəhərindən olan iki döyüşçü dostu həmin qənimətləri daşıyıb gətirirdilər. Güllə yağışı altında reallaşan 3-cü reysdə mərmi lap yaxınlıqda, qarşılarında partladı və igidlərimiz həlak oldular.
Dekabrın 9-da 29 yaşı tamam olan Nicatın Vətən, xalq yolundakı qəhrəmanlıqları dövlət tərəfindən yüksək qiymətləndirilib, müvafiq sərəncamlarla "Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.